UOT 94(479.24); UOT 930.2

MAHİR QƏRİBOV
Tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universiteti Milli mətbuat tarixi kafedrasının doktorantı
https://orcid.org/0009-0002-8183-5802
mahir_garibov@yahoo.com

"İRŞAD" QƏZETİNDƏ ƏHMƏD AĞAOĞLUNUN MİLLİ-İDEOLOJİ GÖRÜŞLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/111/278-283

XX əsr Azərbaycanın ictimai-siyasi fikrinin görkəmli nümayəndələrindən olan Əhməd Ağaoğlunun mətbu fəaliyyətində "İrşad" qəzetinin xüsusi rolu vardır. Onun milli birlik konsepsiyası və ideoloji görüşləri qəzetin səhifələrində geniş şəkildə öz əksini tapmışdır. Əhməd bəyin Avropa təhsil mühiti və demokratik dəyərlər prinsiplərini əsas tutaraq yazdığı məqalələrdə millilik amili daim ön planda olmuşdur. Ağaoğlu həm strateji baxışa malik bir publisist, həm də İslam dünyasının modernləşmə zərurətinin qatı müdafiəçisi kimi çıxış etmişdir. Onun yazıları müsəlman dünyasının birliyi, ideoloji rolu, regional güc balansı və maarifçilik kimi məsələlərə dair mühüm fikirlər təqdim edir. Məqalələr göstərir ki, o yalnız hadisələrin şərhini verməmiş, həm də siyasət, tarix, din və cəmiyyət elmlərinin kəsişməsində nəzəri konsepsiya formalaşdırmışdır. Onun redaktorluğu ilə yayımlanan "İrşad" qəzetində yer alan türkçülük düşüncəsi müstəqillik dövründə milli azərbaycançılıq ideologiyasının formalaşmasına mühüm təsir göstərmişdir.

Açar sözlər: Mətbuat tarixi, "İrşad" qəzeti, Əhməd Ağaoğlunun ideoloji baxışları, Demokratizm, Milli təfəkkürün təbliğatçıları.

Giriş. İctimai fikir tarixində elə şəxsiyyətlər var ki, onlar bütün həyatlarını milli əqidə və amal uğrunda mübarizəyə həsr etmişlər. Əhməd bəy Ağaoğlu da məhz belə şəxsiyyətlərdəndir. Onun həyatı həm də bütöv bir xalqın azadlıq arzusunun mübarizə salnaməsidir. Çar Rusiyasında 1905-ci il 17 oktyabr manifesti ilə elan olunan "söz, mətbuat və vicdan azadlığı" ideyası Azərbaycanda yeni mətbu orqanların yaradılmasına təkan verdi. Bu dövrdə 1905-ci ilin dekabrın 17-də Əhməd bəy Ağaoğlunun redaktorluğu ilə "İrşad" qəzeti nəşrə başladı və qısa zamanda milli maarifçilik hərəkatının əsas tribunasına çevrildi. İmtiyaz sahibi və redaktoru Əhməd bəy Ağaoğlu olan "İrşad" qəzeti, təsadüfdən deyil zərurətdən, milli təəssübdən və zamanın tələbindən meydana gəlmişdi. "İrşad"ın türk və müsəlman dünyasına ünvanlanan "Birlik, bərabərlik və qardaşlıq" ideyası ətrafına dövrün tanınan qələm sahibləri toplaşdılar. Onlar arasında başlıca ideya bu idi: "Azadlıq!". [1. s.157]. Bu baxışlar sonradan milli birlik konsepsiyasının əsas komponentinə çevrildi. Əhməd bəy Ağaoğlunun yazdığı məqalələrində, nəşr etdirdiyi kitablarda, fəallıq göstərdiyi dövlət və ictimai qurumlarda əsas həyat amalı azadlıq olmuşdur. Buraya həm fərdin, həmtoplumun, həm də yaşadığı mühitin azadlığını daxil etmək mümkündür.

"İrşad" qəzetinin nəşr mərhələləri. "İrşad" qəzeti 1905–1908-ci illərdə fəaliyyət göstərmiş və bu dövrdə ümumilikdə dörd il ərzində qəzetin 536 sayı çap olunmuşdur. "İrşad" sözünün mənası "yol göstərən" deməkdir. Əhməd bəy Ağaoğlu 1905-1906-cı illərdə qəzetin 116 sayının redaktoru olmuş, daha sonra Üzeyir Hacıbəyli, Haşım bəy Vəzirov, M.Ə.Rəsulzadə redaktor kimi qəzetin nəşrində fəal iştirak etmişlər. Qəzet öz fəaliyyətini 1908-ci ilin iyun ayının 25-dək davam etdirmiş və fəaliyyəti dönəmində yalnız Bakıda, Azərbaycan dilində nəşr olunmuşdur.

Qəzetin 1906-cı ilin fevral nömrələri, mart ayında isə bir neçə sayı Üzeyir bəy Hacıbəylinin müvəqqəti baş mühərrirliyi ilə işıq üzü görüb. 1907-ci ildə isə 1-ci sayıdan 15-ci sayıya kimi Haşım bəy Vəzirovun redaktorluğu ilə nəşr olunub. M.Ə.Rəsulzadə isə "İrşad"ın 11 sayının (46-57-ci nömrələrinin) redaktoru olub. "Hürriyyət, müsavat, ədalət" şüarı ilə nəşr olunan bu mətbu orqanın naşiri Bakının Sabunçu kəndindən neft milyonçusu İsa bəy Aşurbəyov olub. Onun adı Azərbaycan tarixinə həm xeyriyyəçi, həmdə naşir və publisist kimi yazılıb. Belə ki, "Dəvət", "Şəlalə", "Nicat", rusca çıxan

"Baraban" satirik jurnal və qəzetlərin naşiri, həmçinin redaktoru olan İsa bəy Aşurbəyov "İrşad" qəzetinin çapında da yaxından iştirak edib [2, s.4].

"İrşad"ın nəşri ilə jurnalistika tariximizdə "İrşad"çılar nəsli yetişdi ki, onların sırasında Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə, F.Ağazadə, Ö.F.Nemanzadə, Q.Qarayev, A.Y.Talıbzadə, M.S.Axundov, A.Sur, S.M.Əfəndiyev, M.Hadi, N.Vəzirov, M.Ə.Sabiri göstərmək olar. Gündəlik nəşr olunan bu qəzet ədəbi, siyasi, elmi, iqtisadi və ictimai qəzet idi. Şərq əxlaqi-mənəvi dəyərlərinin qədimliyini önə çəkən "İrşad" islamın elmi-fəlsəfi tərəflərinə diqqəti yönəldirdi. İnsan azadlığının dini dəyərlərlə eyniyyət təşkil etdiyini vurğulayır və müsəlman həmrəyliyi üçün aktual olan yazılar dərc edirdi. Dövrün görkəmli ədib, şair və publisistlərini ətrafına toplayan "İrşad" təkcə xalqın gedəcəyi yolu göstərmir, mövcud çətinlikləri, məzhəb ixtilaflarını da qələmə alır, cəmiyyəti birləşdirəcək mənəvi dəyərləri təbliğ edirdi. Ağaoğlunun məqalələrində əsas ideya xəttini azadlıq, özünüdərk, ictimai tərəqqi və türk kimliyi təşkil edirdi. O, xalqın tarixində mühüm rol oynamış türk dövlətçilik ənənələrini xatırladaraq yazırdı ki, azadlıq insan şüurunun əsas mahiyyətidir.

Bəşəriyyətin tarixi təcrübəsini öyrənən və müasir mədəni prosesləri izləyən ziyalıların fikirlərindəki ümidverici cəhət bu olmuşdur ki, milli və dini mənsubiyyətindən asılı olmayaraq əksər mütəfəkkirlərin məqsədləri mənsub olduqları millətə arzuladıqlarını bütün bəşəriyyətin gələcəyi üçün məqbul saymış, mədəni dəyərləri milli və bəşəri meyarların harmoniyası şəklində təqdim etməyə çalışmışlar. Türk dünyasının, o cümlədən də Azərbaycan ziyalılarının fəal qoşulduqları bu milli müzakirə, cəmiyyətin yeniləşməsi və mədəni həyatın müasirləşməsi ideyaları mütəfəkkirləri "Dünya mədəniyyəti bir bütündür" qənaətində birləşdirmişdir. Onlar nəticədə belə bir həmrəy fikirdə olmuşlar ki, mədəniyyətləri coğrafi mənsubiyyətinə görə deyil, məzmun və mahiyyətinə görə dəyərləndirmək lazımdır.

Əhməd bəy Ağaoğlunun milli-ideoloji baxışları. "İrşad" yeni qurulacaq dövlətin, azadlığa çıxacaq Azərbaycanın naminə çalışır, gündəlik işin, yaşanacaq ideyaların düsturunu müəyyənləşdirdi. XX əsrin əvvəllərində formalaşan üçlü məfkurə "türkləşmək, islamlaşmaq və müasirləşmək" mədəni, dini və milli identiklik məsələsində dönüş nöqtəsi sayılır. Bu ideya ilk dəfə Əli bəy Hüseynzadə tərəfindən irəli sürülmüş, lakin sistemləşməsi və siyasət sahəsində yayılması Əhməd bəy Ağaoğlu, M.Ə.Rəsulzadə və Ziya Gökalp tərəfindən davam etdirilmişdir.

XIX əsrin 90-cı illərindən "millət nədir?" sualına cavab axtarmağa başlayan böyük mütəfəkkir, ümumtürk problemləri ilə məşğul olarkən gənc yaşlarından milli-azadlıq hərəkatlarının təsiri ilə milli özünüdərketmə prosesinikeçərək mükəmməl milli intibah, milli azadlıq konsepsiyasınagəlib çıxmış və belə bir fikrə gəlmişdir ki, "Türklük bölünmə qəbul etməyən bir tamdır. Harada olursa olsun ona xidmət etmək mübarəkdir, müqəddəsdir!" [3, s.73].

Əhməd bəy Ağaoğlu türklərinsoykökünün tarixinə müraciət edərək onların müstəqil dövlətqurduqları dövrləri yada salır və azadlığı insan şüurunun cövhəriadlandırırdı. Əhməd bəyin fikrincə, hər bir insan milli əxlaq vəmənəviyyatın müqəddəs normalarından biri olan vətənpərvərlikhissinə malik olmaqla yanaşı Vətən yolunda cəfaya da dözməli, torpağın hər qarışını düşməndən qorumaq üçün öz qanını bələəsirgəməməlidir. Şübhəsiz ki, Vətən də öz övladlarının qayğısınaqalmalı, onların bütün hüquqlarını təmin etməlidir. Belə olduqdaxalq bir qaya olub düşmən hücumlarının qarşısına sipər çəkər. Siyasi plüralizmi önə çəkən Ə.Ağaoğlu Rusiyada fəaliyyət göstərən firqələrin fəaliyyətini də işıqlandırırdı. O, "Rusiyanın hal-hazırı" məqaləsində "İstibdadiyyun və məşrutiyyun" istiqamətində olanların, yəni monarxist və inqilabi partiyaların fəaliyyəti barəsində məlumat verir, onların yaranma səbəblərini, fəaliyyətlərini araşdırırdı. Müəllif öz məqaləsində "monarxist obsolyutist", "monarxist konstitusionalist" və "konstitusionalist demokrat" firqələrinin yaranması və ictimai-siyasi islahatların zəruriliyini diqqətə çatdırırdı. Ə.Ağaoğlu bu mənada müasirlərini "konstitusionalist demokratlar"ın üzərinə yönəldərək yazırdı: "Bu firqə Rusiyada ən böyük, ən güclü firqələrdəndir: cəmi Rusiyanın pişrovları, qələsı, ərbabi-qələm və zəkası, bəyləri, xanları, professorları, yazıçıları və qəzetləri bu firqədəndirlər. Şimdidən demək olar ki, gələcəkdə hökumət və idarə bu firqənin əlində olacaqdır" [4, s.3]. "İrşad"çılar Azərbaycanın gələcək istiqlalı naminə əzmlə mübarizə aparır, qonşu ölkələrdə gedən ictimai-siyasi prosesləri izləyir, onlara aid analitik yazılar yazırdılar. Həmçinin Avropa və Amerika, Uzaq və Yaxın Şərq ölkələri də diqqətə alınır, rus, fransız, ingilis mətbuatına istinadən beynəlxalq həyat barəsində informasiyalar dərc edirdilər. Çap olunan yazılarda "İrşad" öz ideya-siyasi istiqamətinə, ideoloji görüşünə görə hürriyyət amalını, milli müstəqillik, azadlıq duyğularını tərənnüm edirdi. Ağa-

oğlu Azərbaycan mühitinin yeniləşməsi üçün yalnız tənqid etmir, eyni zamanda onun həlli yollarını göstərirdi. O, qeyd edirdi ki, müsəlmanların qurtulması, onların maddi, mənəvi həttasiyasi yüksəlişi, yalnız iki məsələnin həllinə bağlıdır: Qadın azadlığı, əlifba islahatı [5, s.83].

Əhməd bəy Ağaoğlu vaxtilə dünyada hökmran mövqe tutan türk xalqının tarixindən milli fəxr hissi ilə yazırdı: "Nəslim əsil, elimnəcib, qanım təmizdir. Yurdum əvvəlcə Orta Asiyanın yüksək yaylası idi. Sonra coşub daşan bir qanın həmlələri ilə əcdadım Şərqə, Qərbə, Şimala və Cənuba yayılmışdır. Məmləkətlər basmışlar, dövlətlər qurmuşlar, mədəniyyətlər meydana gətirmişlər" [6, s.94]. O, daha sonralar "Millət və ziyalılar" mövzusuna toxunaraqyazır ki: "… millətə rəhbərlik edən onun əməl və arzularına tərcüman olan zümrə" ziyalılardır. Bu zümrə "adətən millətin biraynası olur, millət nədirsə, o da odur, o nə isə, millət də odur" [7, s.201]. Həqiqətən də ziyalılar tarixdə əsl bir inqilab yaratmışlar.Əhməd bəyə görə: "Millətin təşəkküləndə birinci amil milli ruh, milli psixologiya, ikincisi isə milli ictimai-bədii fikirdir. Dante, Şekspir, Bruno, Milton, Spenser, Lermontov, Tolstoy, Şiller, Hegel, Volter, Russo, Hüqo, Puşkin kimi ədiblər, şairlər, mütəfəkkirlər olmasaydılar, ingilis, alman, fransız, italyan, rus millətləri vücuda gəlməzdi!" [6, s. 95]. Bununla Əhməd bəy Ağaoğlu millətinvə millətçiliyin əvvəlcə məhz Qərbdə, Avropada meydana gəldiyinə və Şərqin bu məsələdə geridə qalmasına işarə edirdi. Halbuki dünya xalqlarının qanı məhz türk qanı ilə qarışdırılmışdır: "… kim bilir, bu günki hindlərin, əfqanların, farsların, cənubi rusların, lehlərin, müstəmər cəzairlilərin, tunislilərin, misirlilərin damarlarında axan qanın çox hissəsi türk irqinə mənsubdur. Türklər qoca Asiyayı, Avropa ilə Afrikayı istila etdikləri zaman-larda qanlarını əsirgəməmişlər. Bəlkə də bu bir fərmani-allah idi… Əskimiş ənasirin təzələnməsi, yekyədən vücud və həyat bulmaları üçün türk qanı ilə bəşəriyyətin aşılanması, bəlkə hikməti-əzəmiyyədən bərayi-sirdir" [8, s.208]. Onun "Türk aləmi" məqaləsində yazdığı bu fikirlərdən "bəşəriyyətin türk qanı ilə aşılandığı" nəticəsi çıxarılır. Buna görə də məhz millətçilik türk xalqlarını köləlikdən xilas edib birləşdirəcək, onlara mətanət, əzm, səbatlılıq hissi bəxş edəcək qüvvədir. "Xasiyyətcə olduqcamütədəyyin bir millət olan" "türklərin müqəddəratı … islamiyyətin müqəddəratı ilə ayrılmayacaq dərəcədə mərbutdur… Biz türklər Asiyai-qərbiyyəyə atıldığımız gündən bəri kəndimizi islam deyə tanıyırız… Tarixi-islamın doqquz yüz sənəsində islamiyyəti müdafiə, mühafizə, siyasət və himayət vəzifəsini türk qövmikəndi umuzuna almışdır… İslamiyyət türklər üçün bütün mənasıilə qövmi, (irqi) bir dindir" [8, s.209]. Əhməd bəy Ağaoğlu türkçülüyü islama qarşı qoymaq fikrindən çox uzaq olaraq göstərirdi ki, türk qövmini islamiyyətdən, islamiyyəti də türk qövmindən təcrid etmək mümkün deyil.

Türkçülük və İslam münasibətləri. Əhməd bəy türkçülüyü islamdan ayırmadan, hər iki ideyanın vəhdətini vacib hesab edirdi. Onun fikrincə, türklər tarix boyu islami dəyərlərin siyasi və mənəvi dayağı olmuşlar. Əli bəy Hüseynzadə, Əhməd Kamal və Midhət Cödət də öz yazılarında Şərq tarixi və islam elminə toxunur, Şərqin möhtəşəmliyini, mədəni zənginliyini təbliğ edirdilər. Əhməd bəy Ağaoğıunun yazılarında da Şərqlə Qərb üz-üzə qoyulmur, iki fərqli dünyagörüş kimi təqdim olunurdu.

Xristian dünyası və islam aləmi tarixində azadlıq anlayışına münasibət bildirən "İrşad"çılar dövlət və cəmiyyət münasibətlərinə aydınlıq gətirir, bu mənada ictimai institutları formalaşdıran Avropanın bu sahədə xeyli önə çıxdığını qeyd edirdilər. Fransanın timsalında Avropaya münasibət meyarını müəyyənləşdirməyə çalışan Əhməd bəy "İrşad"da dövlətçilik tarixi və nəzəriyyəsindən danışarkən əvvəlcə Azərbaycanda demokratik cəmiyyət yaradılması ideyasını ortaya qoyurdu". "İrşad"da ilkin islamın təriqətlərə parçalanması pislənilir, dini təfəkkürün vəhdət ideyası gücləndirilir, bədii ədəbiyyatda və publisistikada islam modernizmi əsas götürülür, islamın təməl faktorlarının bərpasına diqqət yönəldir, "Sünni-şiə ayrı-seçkiliyini" ciddi tənqid edən Əhməd bəy Ağaoğlu bu ümummilli problemin nəzəri həllinə çalışırdı [6, s.95]. "Türk aləmi" silsiləsində isə islamiyyət və qövmiyyətin (türklüyün) bir-biri ilə qarşılıqlı təsirdə inkişaf etdiyini əsaslandırırdı. "İslamiyyət cərəyanı türk aləmində müşahidə edilən cərəyanların birincisidir. Fəqət bunun zəminində digər bir cərəyandaha hüsula gəlməkdədir ki, bu da qövmiyyət, yaxud türklük cərəyanıdır… Şu iki cərəyan bəzən birləşərək, bəzən ayrılaraq imtizac və bəzən mücadimə edərək, eyni sahə üzərində yürüməkdədir. Bunların bəxş etməkdə olduğu füyuzat eyni dərəcədə mühüm və nafe, eyni dərəcədə mübərra və müqəddəsdir [8, s.208].

"İrşad"ın ictimai-siyasi xətti. Qəzet Avropa və Rusiya mətbuatına istinadən beynəlxalq siyasi prosesləri təhlil edir, rus monarxist və demokrat firqələrinin fəaliyyətini izah edir. Bununla yanaşı, Azərbaycanda demokratik cümhuriyyət ideyasının ilk nəzəri əsasları da məhz "İrşad"ın səhifələrində

formalaşmışdır. Təriqətlərarası savaşın xalqın birliyinə əngəl olduğunu önə çəkən Ə.Ağaoğlu "İrşad" qəzetində bu problemə toxunaraq xalqın mənəvi tənəzzülünə səbəb olan faktorlar barəsində yazırdı: "Necə ki, çox adamlara məlumdur bu axırlarda bəzi fəsad və fitnəçilər çalışırdılar ki, Qafqaz şiə və sünni müsəlmanlarının arasına büğz və ədavət salıb ortalarına cədvəl və cidal salsınlar" [9, s.3]. Bu problemləri təhlil edən Əhməd bəy Ağaoğlu Azərbaycanın ayrı-ayrı bölgələrində baş verən proseslərə üz tutur, qarşıdurma səviyyəsinə qaldırılmış məsələni "birlik, bərabərlik və ədalətlə" aradan qaldırmağı vacib hesab edirdi. Ağaoğlu məzhəbçiliklə mübarizə aparmaqla yanaşı şiə-sünni qarşıdurmasını xalqın milli birlik və inkişafına ən böyük maneələrdən biri kimi görürdü. O, Qafqaz müsəlmanları arasında təfriqə yaradan qüvvələri sərt tənqid edirdi. "Difai" partiyasının proqramını dərc etməklə xalqı bir təşkilat ətrafında cəm olmağa çağırırdı [10, s.260]. Yaranmış vəziyyətdə xalqın varlığını qoruyub saxlamaq, milli mübarizəni həyata keçirmək üçün milli təşkilatlanma prosesini həyata keçirmək Azərbaycan ziyalılarının qarşısında duran başlıca şərt idi.

Milli intibah və mədəni dirçəliş. Ağaoğlu milli intibahın şərtlərini aşağıdakı kimi müəyyənləşdirirdi: siyasi və milli şüurun inkişafı, milli birlik, mədəni tərəqqi, fanatizm və mövhumata qarşı mübarizə, çarizm və rus şovinizminə qarşı duruş. Bu baxışlar Azərbaycan milli ideologiyasının formalaşmasında mühüm nəzəri baza yaratmışdır. Əhməd bəy Ağaoğlunun fikrincə, milli kimliyini dərk etməyən, tarixi irsinə sahib çıxmayan xalq dini mənsubiyyətə əsaslanmaqla mövcudluğunu sübut edə və qoruyub saxlaya bilməz. Və bu mənada Ağaoğlu "İrşad"da mənsub olduğu xalqın milli özünüdərkinə və oyanışına təkan verən publisistik yazılarla çıxış edirdi. Bu böyük mütəfəkkir "İrşad"ı Azərbaycan jurnalistikasının ən ciddi problemləri ilə məşğul olmağa yönəldir, bir sıra mətbu orqanları, o cümlədən "Həyat"ı, "Kaspi"ni, "Molla Nəsrəddin"i, "Fyuzat"ı dövrün aynası hesab edir və mətbuatı bütövlükdə cəmiyyətin meyar ölçüsü kimi dəyərləndirirdi. Məhz buna görə də "İrşad"çıları həmişə şəxsi qərəz və intriqalardan uzaq durmağa səsləyir, əsassız mübahisələrə qarışmamağa çağırırdı. Dövrün bəzi mətbu orqanlarındakı şantaja ürəkağrısı ilə yanaşırdı. "İrşad"ın abunəsinin aşağı düşdüyü vaxtlarda ona qarşı yönələn qarayaxma kampaniyası hallarını görən Ə.Ağaoğlu dözümlülük nümayiş etdirir və yazırdı: "Mən səmimi qəlbdən diyirəm, əgər millətim məndən narazıdır, əgər məni qəzetin nəşrini aparmağa layiq görmürsə, mən "İrşad"ı hər kəs istəsə, ona verərəm, qoy məndən yaxşıları, məndən layiqliləri aparsın, təki aparsın, təki bu mənbeyi-feyz və tərəqqi olan sərmayə əlimizdən çıxmasın. Axtarın, vuruşun, tapın, biz bu qədər zəhmətlər ilə düzəlmiş büsatı özgələrə millət namına təslim etməyə hazırıq" [9, s.4].

"İrşad"a qarşı siyasi və mənəvi təzyiqlər. Əhməd bəy Ağaoğlunu tənqid atəşinə tutanlar köhnə fikirli insanlar, mühafizəkar şəxslər idi və bunu çox zaman sadəcə tənqid xatirinə edirdilər. Qəzetin fəaliyyətinə mənfi təsir göstərən məsələlərdən biri "İrşad"ın yayımına Türkiyənin hakim siyasi dairələrinin qadağa qoyması idi. Əhməd bəy Ağaoğlu "İrşad"ın 23 fevral 1907-ci il tarixli sayında yazırdı: "Sultan Əbdül Həmidin qəzetəsinin Türkiyəyə keçirilməsi şiddətli surətdə yasaq edildi, qadağan olundu. Sultan sarayından bu xüsusda rəsmi işarət viqun bulmuş bunun üçündür ki, iki həftədən bəri Rusiya postaxanələri kimsəyə bir şey vermiyor, bana göndərilən ruznamələr dəxi yetişmiyor" [9, s.4]. Qəzetin fəaliyyətinin dayandırılmasını abunə azlığı, dil qəlizliyi, fikir mürəkkəbliyi və jurnalistika təcrübəsinin yetərincə olmaması ilə bağlayanlar bu fakta diqqət yetirməlidirlər. XX əsrin əvvəllərindəki mətbuat nümunələri haqqında xatirələrində Abdulla Şaiq o dövrün nəşrlərini qaranlıq gecədə biri-birinin ardınca yanıb-sönən ulduzlara bənzədirdi. Bu dövrdə Azərbaycan mətbuatının ən parlaq nümunəsi olan "İrşad" yenilikçi mətbuat orqanı kimi öz missiyasını layiqincə davam etdirir, fikir və informasiya istehsalı ilə məşğul olurdu [10, s.24].

"İrşad"ın göstərdiyi yol ümumxalq yolu olduğundan sonralar istər "Molla Nəsrəddin"çi mətbu orqanlar, istərsə də "Fyuzat"çı romantik-fəlsəfi nəşrlər onun prinsiplərini daha geniş miqyasda davam etdirdilər. "İrşad"dan sonra onun əsas aparıcı yazarları dövrün müxtəlif mətbu nəşrlərində çalışır, milli jurnalistikamızın inkişafına öz töhfələrini verirdilər. Dövrün bir sıra aparıcı mətbu nəşrləri ilə yanaşı, "İrşad"dan sonra fəaliyyətə başlayan "Yeni İrşad" və "Çarıxçı" deyilənlərə sübutdur. Əhməd bəy Ağaoğlu başda olmaqla "İrşad" və irşadçıların fəaliyyəti azad cəmiyyət, müstəqil dövlət və bütöv vətən ideyasına əsaslandığından, öz dövrlərində mühafizəkar qüvvələrin açıq-aydın təzyiqlərinə məruz qalıb. Bu təhdidlər təəssüf ki, sovet dönəmində də təkrar olunub, panislamist və pantürkist damğası ilə "İrşad" obyektiv təhlildən kənarda qalıb.

Nəticə. XX əsrin əvvəllərində "İrşad" qəzetinin səhifələrində yer alan milli-ideoloji konsepsiya - türkçülük, milli birlik, demokratik dəyərlər və modernləşmə prinsipləri, müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarının formalaşmasına mühüm təsir göstərmişdir. Ağaoğlu, türk millətinin tarix səhnəsindəki köklü varlığını ön plana çəkən fikirləri ilə Türk tarixinin ümumbəşəri sivilizasiya içərisindəki yerini müdafiə etmiş, elmi tarix anlayışının formalaşmasına ciddi töhfə vermişdir. O, milləti iradi amillərə əsaslandırmış, etnik millətçilik tərəfdarı olmadığını göstərmişdir. Bu baxımdan, Ağaoğlunun fəaliyyəti həm Cümhuriyyət dövrü tarix yazımına, həm də milli kimliyin formalaşmasına əhəmiyyətli bir töhfə kimi qiymətləndirilməlidir.

Əhməd bəy Ağaoğlunun türk millətinin tarixi məsuliyyətini yerinə yetirməsinin vacibliyini vurğulayan çıxışları və mövqeyi göstərir ki, türklərin tarix anlayışı yalnız keçmişi öyrənmək deyil, bu bilikdən millətin gələcəyi üçün istifadə etməyi də əhatə edir. Bu yanaşma onun tarix şüurunu milli şüur məsələsi kimi dəyərləndirdiyini və müəllimlərin bu şüurun ötürülməsindəki rolunun yüksək və əvəzsiz olduğunu göstərir. Ağaoğlunun bu prosesdəki rolu onu Türk dünyasının ortaq dəyəri halına gətirmişdir. Əhməd bəy Ağaoğlunun elmi-publisistik irsi və xüsusilə "İrşad" qəzetindəki yazıları Azərbaycanda milli düşüncənin inkişafında silinməz izlər qoymuşdur.

ƏDƏBİYYAT

1. Yaqublu, N. Əhməd Ağaoğlunun Azərbaycan ictimai-siyasi mühitinə gətirdiyi yeni dəyərlər. Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun materialları. Bakı, 2-3 oktyabr 2019-cu il, s.157-160.
2. İsmayıl Y, "Əhməd bəy Ağaoğlunun "İrşad"ı- "Birlik, bərabərlik və qardaşlıq" ideyası bu qəzetin əsas şüarı idi", Şərq qəzeti, Bakı, 21 may 2019.
3. Ağaoğlu A, "Mütareke ve Sürgün Hatıraları", İstanbul, 2010.
4. Ağayev, Ə "Qəribə işlər", İrşad qəzeti, Bakı,17 fevral 1907.
5. Süleymanlı M,"Əhməd Ağaoğlunun "İslama görə və İslamiyyətdə qadın", Bakı 2008.
6. Qəribov M. "Əhməd bəy Ağaoğlunun mətbu fəaliyyətində milli birlik ideyası və ideoloji məsələlər" Qədim Diyar Beynəlxalq Elmi Jurnal. 2025 / Xüsusi Buraxılış, s.92-98.
7. Mirəhmədov Ə. "Əhməd bəy Ağaoğlu", Bakı, 2014.
8. Mustafayev, Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, 1973.
9. Ağayev, Ə, "Qəribə işlər", İrşad qəzeti, Bakı, 23 fevral 1907.
10. Ağaoğlu, Ə. Qafqazda milli məsələ: Məqalələr və sənədlər toplusu. Bakı, 2019.

МАХИР ГАРИБОВ
Кандидат исторических наук
Бакинский Государственный Университет
Докторант кафедры История национальной прессы

НАЦИОНАЛЬНО-ИДЕОЛОГИЧЕСКИЕ ВЗГЛЯДЫ АХМЕД АГАОГЛУ В ГАЗЕТЕ «ИРШАД»

Газета «Иршад» занимает особое место в публицистической деятельности Ахмед Агаоглу- одного из видных представителей общественно-политической мысли Азербайджана XX века. Его концепция национального единства и идеологические взгляды получили широкое отражение на страницах издания. В статьях, написанных Агаоглу, где в основу положены европейская образовательная среда и принципы демократических ценностей, национальный фактор всегда выдвигался на первый план. Агаоглу выступал как публицист со стратегическим видением и одновременно как убеждённый защитник необходимости модернизации исламского мира. Его работы содержат важные идеи, касающиеся единства мусульманского мира, его идеологической роли, регионального баланса сил и просвещения. Материалы показывают, что он не только комментировал события, но и формировал теоретическую концепцию на пересечении политики, истории, религии и социальных наук. Туркистская идеология, отражённая на стра-

ницах газеты «Иршад», издававшейся под его редакцией, оказала значительное влияние на формирование идеологии азербайджанства в период независимости.

Ключевые слова: история прессы, газета «Иршад», идеологические взгляды Ахмед-бека Агаоглу, демократизм, пропагандисты национального мышления

MAHIR GARIBOV
Doctor of Philosophy in History
Baku State University, Doctorant at the Department of National Press History

NATIONAL-IDEOLOGICAL VIEWS OF AHMAD AGAOGLU IN THE "IRSHAD" NEWSPAPER

The newspaper Irshad occupies a special place in the journalistic activity of Ahmad Agaoglu, one of the prominent representatives of Azerbaijan's socio-political thought in the twentieth century. His concept of national unity and ideological views are extensively reflected in the pages of the newspaper. In his articles, written on the basis of the European educational environment and the principles of democratic values, the idea of national identity always remained at the forefront. Agaoglu emerged both as a publicist with strategic vision and as a strong advocate of the necessity for modernization in the Islamic world. His writings present important ideas on issues such as the unity of the Muslim world, its ideological role, regional power balance, and enlightenment. The articles demonstrate that he not only interpreted contemporary events but also formulated a theoretical concept at the intersection of politics, history, religion, and social sciences. The Turkish ideological thought reflected in the Irshad newspaper, published under his editorship, had a significant influence on the formation of Azerbaijani national ideology during the period of independence.

Keywords: History of the press, Irshad newspaper, ideological views of Ahmad Agaoglu, democracy, propagators of national thinking

Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: f.e.d. Vüqar Əliyev, s.e.d. Sabir Məmmədli.